**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Bolqarıstan Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Bolqarıstan Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında 2014-cü il iyunun 30-da Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 sentyabr 2014-cü il
№ 715

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Bolqarıstan Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında**

**A N L A Ş M A   M E M O R A N D U M U**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Bolqarıstan Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi,

iki ölkə arasında dostluq münasibətlərini və kənd təsərrüfatı sahəsində əməkdaşlığı inkişaf etdirmək arzusu ilə,

hər iki ölkədə elmi tədqiqat, təlim və kənd təsərrüfatının inkişafı üzrə məsul qurumlar arasında əməkdaşlığı genişləndirmək istəyi ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Anlaşma Memorandumu iki ölkə arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı maraq kəsb edən müxtəlif sahələrdə iqtisadi, elmi və texniki əməkdaşlığın qarşılıqlı faydalı inkişafına yönəlmişdir.

Maddə 2

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıdakı sahələrdə qarşılıqlı iqtisadi, elmi və texniki əməkdaşlıq əlaqələri qurur və inkişaf etdirirlər:

1. süd və ət məhsullarının istehsalı və emalı;
2. damazlıq;
3. bitkiçilik;
4. mədəni bitkilərin toplanması, qorunub saxlanması və seleksiyası;
5. ipəkçilik;
6. ərzaq və yem məhsullarının təhlükəsizliyi;
7. bitki mühafizəsi və karantin;
8. baytarlıq;
9. qarşılıqlı maraq kəsb edən digər sahələr.

Maddə 3

1. Tərəflər 2-ci maddədə qeyd olunmuş sahələrdə əməkdaşlığı dəstəkləyir və inkişaf etdirirlər.

2. Bu əməkdaşlıq məlumat, mütəxəssis və ekspert mübadiləsi, birgə təlim, seminar və konfransların təşkil edilməsi, hər iki ölkədə ticarət yarmarkaları və sərgilərdə iştirakın dəstəklənməsi və Tərəflər arasında danışıqlardan asılı olaraq, digər vasitələrlə həyata keçirilir.

Maddə 4

Bu Anlaşma Memorandumu Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 5

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə bağlı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Anlaşma Memorandumu qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməklə bu Anlaşma Memorandumunu ləğv edə bilər. Bu Anlaşma Memorandumu belə bildirişin alındığı tarixdən altı ay sonra ləğv olunur.

Bakı şəhərində 2014-cü il 30 iyun tarixində, hər biri Azərbaycan, bolqar və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**adından**
*(imza)*

**Bolqarıstan Respublikasının**
**Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi**
**adından**
*(imza)*